1. **Azərbaycan Respublikasında mobil internetin faktiki sürəti nə qədərdir?**

   “Ookla”nın “Speedtest Global Index”i portalında (https://www.speedtest.net/global-index/azerbaijan#fixed) Azərbaycan Respublikasında sabit, həmçinin mobil internetin median sürətinin cari vəziyyəti ilə tanış ola bilərik.

2. **Mobil internet ilə sabit internet arasında fərq varmı?**

   Mobil internet istifadəçinin son avadanlığı (məsələn, telefon, planşet və ya MiFi, Dongle və sair son istifadəçi cihazları) telekommunikasiya şəbəkəsinin bütün əhatə dairəsində sərbəst hərəkət edə bilən xidmətdir. Bu zaman avadanlıq ona məxsus olan mobil stansiya identifikasiya kodunu qoruyub saxlayır və radiotexnologiyalar vasitəsilə şəbəkəyə qoşularaq telekommunikasiya xidmətlərindən (internet, zəng, mesaj və s.) istifadə etməyə imkan yaradır.

3. **Nə üçün sellülar (mobil) telekommunikasiya şəbəkələrində fərqli ərazilərdə siqnal gücü dəyişir?**

   Ərazinin relyefi, mobil baza stansiyasından məsafə, tikili sıxlığı və istifadəçi sayı siqnal keyfiyyətinə təsir edir.
   Bəzi ərazilərdə coğrafi mövqe və tikililər siqnalın zəifləməsinə səbəb ola bilər. Bu zaman mobil operatora məlumat vermək tövsiyə olunur.
   Həmçinin qalın divarlar, beton konstruksiyalar, metal elementlər, lift şaxtaları və yeraltı mərtəbələr radio siqnallarının yayılmasını zəiflədir və ya tamamilə qarşısını alır. Bu cür materiallar siqnalları ya udur, ya da əks etdirərək onların istiqamətini dəyişir. Nəticədə siqnalın gücü azalır və internet bağlantısında problemlər yarana bilər.

4. **Sellülar (mobil) telekommunikasiya şəbəkəsində “No Service” və ya “Network unavailable” nə deməkdir?**

   Bu, siqnalın və ya şəbəkə bağlantısının olmaması deməkdir. Bu hal həmin ərazinin xidmətin əhatə dairəsində olmadığı halda baş verir.

5. **Siqnal gücü ilə internet sürəti arasında əlaqə varmı?**

   Zəif siqnal gücü məlumat ötürmə sürətinin azalmasına səbəb ola bilər, güclü siqnal isə daha yüksək sürət təmin edir. Mobil telefonun menyusuna daxil olaraq “Field Test”(əgər istifadə etdiyiniz mobil telefon bu funksiyanı dəstəkləyirsə) və ya xüsusi mobil tətbiqlərlə (nümunə: Network Cell Info) siqnal gücünü yoxlamaq mümkündür.

6. **Hərəkətdə olarkən mobil internet niyə kəsilə bilir?**

   Mobil cihaz bir baza stansiyasından digərinə keçdikdə ötürmədə (handover) fasilə ola bilər. Baza stansiyaları arasında qonşuluq konfiqurasiyası (neighbour confirugation) nəzərə alınmadığı hallarda mobil internetin kəsilməsi mümkündür.

7. **Sellülar (mobil) telekommunikasiya şəbəkəsində videozənglər niyə dona bilir?**

   Bu zəif siqnal, yüksək “latency” (gecikmə) və ya yüksək “jitter” (müəyyən bir zaman aralığında maksimum gecikmə ilə minimum gecikmə arasındakı fərq) səbəbindən baş verir.

8. **“Rouming” zamanı mobil internet niyə zəif ola bilir?**

Şəbəkə artıq yerli deyil və ötürmə gecikməsi, kvota və texniki fərqliliklər sürətə təsir edir.

9. **Mobil şəbəkə üzrə zəif siqnal əhatə dairəsi olan ərazilər necə müəyyən edilir?**

İKTA və mobil operatorlar tərəfindən aparılan sahə ölçmələri və istifadəçi şikayətləri əsasında müəyyən olunur.
İKTA-nın mütəxəssisləri mobil rabitə şəbəkələri üzrə marşrutlar müəyyənləşdirərək sahə ölçmələri aparır. Həmçinin "Ookla"nın "CellAnalytics" platforması mobil şəbəkə məlumatları və istehlakçı şikayətləri əsasında zəif siqnal əhatə dairəsi olan ərazilər müəyyən olunur və mobil operatorlara tövsiyələr verilir.
Zəif siqnal və kəsilmələr barədə "E-Şikayət" informasiya sistemi vasitəsilə müraciət edə bilərsiniz. Bu məlumatlar əsasən "Ookla"nın "CellAnalytics" platforması ilə üst-üstə düşürsə, ölçmə qrupu göndərilir.

10. **Mobil operatoru dəyişmək istəyirəm, nömrəni saxlaya bilərəmmi?**

Azərbaycan Respublikasında mobil nömrə daşınması xidməti tətbiq olunur ki, bu da abunəçilərə mobil operator dəyişdikdə mövcud nömrəni saxlamaq imkanı yaradır. Nömrə daşınması üçün seçmək istədiyiniz operatorun müvafiq xidmət mərkəzinə müraciət edilməlidir.

11. **Mobil nömrədə abunəçiyə xəbərdarlıq edilmədən hər hansı tarif aktiv edilə bilərmi?**

Abunəçilərin istifadəsinə verilən nömrələrlə bağlı münasibətlər abunəçi ilə operator arasında bağlanılmış abunə müqaviləsi ilə tənzimlənir. Abunəçilərə operatorla bağladıqları müqaviləyə baxmaları tövsiyə olunur.

12. **Nömrəyə ödəniş edilmədikdə nömrə bağlana bilərmi?**

Abunəçilərin istifadəsinə verilən nömrələrlə bağlı münasibətləri abunəçi ilə operator arasında bağlanılmış abunə müqaviləsi ilə tənzimlənir. Abunəçilərə operatorla bağladıqları müqaviləyə baxmaları tövsiyə olunur.

13. **Abunəçinin məlumatı olmadan adına nömrə rəsmiləşdirilə bilərmi?**

Abunəçinin razılığı olmadan onun adına mobil nömrə əldə etmək və müqavilə bağlamaq qadağandır. Belə hallarda abunəçi dərhal müvafiq xidmət mərkəzinə və ya mobil operatora rəsmi müraciət etməlidir.